# ŞƏHİD KAMRAN QULUZADƏ

Hər dəfə Qarabağ məsələsinin dağ çəkdiyi bir sinənin sızıltısını, Qarabağ ağrı-acısını əbədiyyətə kimi gəzdirən bir ürəyin göynərtisini, bir gözü ilə zəfərə sevinib, bir gözü ilə şəhid balasına ağlayan bir ananın ah-naləsini yana-yana içimdən keçirib sətirlərə düzdükcə, sanki o dünyanı görüb gəlirəm. Hər şəhid haqqında yazı yazanda beynimdə ildırımlar çaxır, ürəyimdən qara qanlar axır. Nə qədər sakit görünməyə çalışsam da, nə qədər şəhid anasına təsəlli olacaq sözlər axtarıb tapsam da, sonra neçə gün içimdə fırtına qopur, özümə təsəlli verə biləcək bir adam axtarıram. Qanayan yaralar köz tutmur, köz tutmadığı üçün də heç vaxt sağalmır...

Artıq Maştağada və Nardaranda yaşayan şəhid ailələri ilə görüşüb 20 şəhid haqqında məqalə yazmışdım. Altı aylıq fasilədən sonra yenə də bir şəhidin sorağına çıxdım. Şəhid Kamran Quluzadə Ağsuda dəfn olunduğundan, anası Maya Quliyevanın çox zaman orada olduğunu, lakin hərdən böyük oğlu Nicatgilə gəldiyini qohumlarından eşitmişdim. Onun Maştağada olduğunu eşidəndə telefon əlaqəsi saxlayıb, görüşmək istədiyimi bildirdim. Məni Kamranın ortancıl qardaşı Nemət qarşıladı. Şəhid Kamranın adına olan bulaqdan Nicatın evinə xeyli yol getdik...

Evə girəndə qarşıma qara geyimli, hicablı, üzündən nur tökülən, qucağında balaca oğlan uşağı olan çəlimsiz bir xanım çıxdı. İlk anda fikrimdən keçən bu oldu: "Allah bu balaca cismə bala dağı gəzdirən nə böyük ürək verib...".

Söhbət əsnasında bildim ki, onun qucağındakı uşaq Nicatın oğlu Kamrandır. Şəhid əmisinin adını yaşadan bu körpəyə baxanda "gedənlərin yeri boş qalmır" düşünüb onu verən Allaha şükür etdim və "Yaxşı ki, adını yaşadan var" dedim. Maya xanım isə dedi: "Adını qoymaq istədilər, dedim ki, əgər mən istəyən kimi saxlaya biləcəksizsə, onu incidib ürəyimi qırmayacaqsızsa, qoyun... Özü də elə bil Kamranın uşaqlığıdır". Bu da Allahın bir lütfüdür. "Mövlam neylər, gözəl eylər"!..

Elə ilkin suallarım da Kamranın uşaqlığı, təhsili haqqında oldu. Maya xanım çox fikirləşmədi. Sanki şəhid oğlunun uşaqlığı yaddaşından süzülüb kino lenti kimi gözləri önünə gəldi, dedi: "Kamrandan danışmaqla qurtarmaz. O qədər xatirələri var ki. Uşaqlıqda çox nadinc idi. Balaca vaxtdan deyirdi ki, hərbçi olacağam. Taxtadan avtomat düzəldər, uşaqlarla oynayardılar. O zaman biz Ağsuda Gəgəli kəndində yaşayırdıq. Bir dəfə məhəllə uşaqları ilə meşəyə oduna getmək istəyirdi. Dedim ki, getmə, bibioğlunun toyuna gedək. Dedi ki, toy sabahdır, gedərik. Sonra əlavə etdi ki, ana, mən bir yerə gedəndə, heç vaxt demə ki, getmə, de ki, Allah işini avand eləsin. Yenə dedim, bala, getmə. Getdi. Meşədə odun yığanda ayağına balta dəymiş, barmağı kəsilmişdi. Evə gələn kimi dedi: ana, sənə dedim ki, mən bir yerə gedəndə de ki, Allah işini avand eləsin. Sən narazı oldun, ona görə ayağım kəsildi. İndi barmağım işləməyəcək, məni hərbiyə götürməyəcəklər. Barmağı sağaldı...".

Maya xanım həmin illəri xatırlərində yaşadıqca, üzündə xəfif bir təbəssüm gəzdi. Lakin söhbətin məcrası bu təbəssümü bir anda yox elədi. Şəhid anası dərindən ah çəkib sözünə davam etdi: "Orta məktəbi bitirdi, arzusuna çatdı, hərbi məktəbə qəbul olundu. Amma o sözünə görə hərbi məktəbə gedəndə, istəməsəm də, etiraz eləmədim, dedim ki, Allah işini avand eləsin.



Məktəbə girəndən sonra, rayona gələ bilmirdi, ona görə biz də ailəlikcə Bakıya gəldik. 6-cı gün gəlirdi, o gələndə bayram olurdu. Bəzən gəlmirdi. Gəlməmişdən soruşurdum ki, nə bişirim səninçün...".

Deyirlər, güclülər yükü cəsarət zoru ilə çəkib aparırlar, gövdənin ağırlığı ilə yox. Bu balaca bədənin gəzdirdiyi böyük ana qəlbinin cəsarətinə heyran qaldım. Maya xanım nə qədər özünü təmkinli aparmağa səy göstərsə də, yenə arada doluxsunur, sinəsindəki bala dağından qaynaqlanan ağrı-acını gizlətməyə çətinlik çəkirdi. Amma yenə də cəsarətini toplayıb həvəslə danışırdı: "Evin sonbeşiyi idi, amma elə bil böyüyümüz idi. Çox fərqli uşaq idi. Akademiyada oxuyanda 130 manat təqaüd alırdı, 60 manatını mənə verirdi...

Hələ Ziya kurslarına gedəndə namaza başlamışdı, 15 yaşı var idi...

Ali məktəbi bitirdikdən sonra, xüsusi təyinatlı kəşfiyyatçı kimi Naxçıvanın Qıvraq qəsəbəsində taqım komandiri vəzifəsinə göndərilmişdir. 5-6 aydan sonra məzuniyyətə gəidi, 20 gün evdə oldu. Bir il işlədi, iki dəfə məzuniyyət verildi, amma pandemiyaya görə gələ bilmədi. İşləyən vaxtda da oruc tuturdu. Deyirdim ki, hərbi xidmətdir, sən orada necə oruc tutursan, deyirdi ki, payokları aparıb səhərə saxlayıram...".

Kamran haqqında bir dəftər xatirəsi olduğunu və o xatirələrin kitab şəklin də çap olunmasını arzuladığını diqqətə çatdıran Maya xanım yazımın həcmini belə düşünüb Kamranla bağlı ən vacib detalları qeyd edirdi. Söhbət əsnasında onun çox ağıllı, düşüncəli, hətta uzaqgörən, arif xanım olduğunu hiss etdim. Çox şəhid anaları görmüşəm: üsyan edəni də olub, fəxr edəni də, şükr edəni də. Maya xanım yaşadığı hissləri o qədər cilovlamağı bacarırdı ki, onun sakit danışığı, təmkinli davranışı içindəki yaşantılarını tam hiss etməkdə mənə mane olurdu. Şəhid anasının "Kamran" adını dilinə gətirmədən danışdığı da nəzərimdən qaçmadı. Söhbət əsnasında şəhid oğlunun adını bircə dəfə tələffüz etdi, tək bircə dəfə, o da sözə başlayanda. Amma qarşımda yaddaşımda dərin iz buraxan bir xanım var idi və mən onun obrazını yaratmaqda çətinlik çəkirdim. O isə əvvəlki təmkinlə sözünə davam etməkdə idi: "Hələ Naxçıvanda olanda deyirdi ki, mənə də Maştağada öz yanınızda torpaq alın, həbçiyəm, gələcəkdə ailəmi qoyub gedəndə nigaran olmayım. Amma heç ailə qurmaq qismət olmadı ona. Birinci kursda oxuyanda istədiyi var idi. Dedim ki, hələ tezdir, dörd ilin var. İndi fikirləşirəm ki, kaş deməyəydim, evləndirəydim onu, uşaqları olardı, bəlkə getməzdi...".

Şəhidlik yazıdır, Allahın təqdirini dıyişmək olmaz. Bir də deyirlər ki, Allah-təala hər bir anadan oğlunun şəhid olmasına görə icazə istəyir. Ola bilər ki, şəhid anaları da razılıq verib. Bəlkə ruhlar aləmində, bəlkə ana bətnində, onu Allah bilir. Ya bəlkə Kamran özü də ruhlar aləmində şəhid olacağına vəd verib. Bütün bunlar təqdiri-İlahidir, biz bunları bilə bilmərik. İnsanın bilmədiklərini onun ruhu bilir. Maya xanım bu barədə söhbətimizdə dedi: "Mən bunu bilmirdim... Kamran uşaqlıqdan hərbçi olmaq istəyirdi, "general olacağam" deyirdi. Amma şəhid olacağını da sanki hiss etmişdi. Şəhid olanda Zəka kurslarında ona dərs deyən Adil müəllim gəlib belə bir əhvalat danışıb: "Bir dəfə 4-cü kursda oxuyanda gəlib bizlə görüşdü. Söhbət edirdik. Bir qocaman müəllim dedi ki, Kamran, inşaallah sən general olarsan. Dedi ki, müəllim, mən daha yüksək rütbə istəyirəm. Təəccüblə dedi ki, generaldan böyük rütbə? Dedi ki, şəhidlik ondan böyük rütbədir...

Polad Həşimov şəhid olanda statusda yazmışdı ki, inşallah qisasını alarıq, mən də o zirvəyə ucalaram. Dedim, ay bala niyə belə yazmısan, bu nə arzudur edirsən, dedi ki, elə bilirsən hər adam o zirvəyə çata bilir?..

2020-il sentyabrda müharibə başlayanda bizə heç nə demədi. Soruşanda "hər şey yaxşıdır" deyirdi. Müharibə başlayanda hər gün zəng vururdu. Deyirdum ki, ikicə dəqiqə də olsa danış, səsini eşidim. Zəng vurmuşdu, gülürdü, keyfi kök idi. Dedim ki, şəhidlərimiz var, deyirdi ki, hər şey əladır, torpaqlar alınır. 2-3 gün sonra zəng edəndə kədərli idi, dedi ki, qrup yoldaşlarımdan şəhid olanlar var, özümü bağışlaya bilmirəm... Elə o zaman döyüşə getmək üçün ərizə yazıb, deyiblər ki, getmə, hərbi hissədə sənə ehtiyac var, deyib ki, evli hərbçilərin birini saxlayın, onun yerinə mən gedirəm. Oktyabrın əvvəllərində döyüşlərə qatılıb. Naxçıvan xüsusi təyinatlı dəstəsinin komandiri Anar Əliyevin rəhbərliyi altında döyüşüb. Füzulidə döyüşüb, Hadrutun alınmasında iştirak edib, Xocavəndin Tuğ kəndində şəhid olub...".

Maya xanım onu da bildurdi ki, Kamran böyük qardaşı Nicat ilə pərdəli dolanırmış, ortancıl qardaşı Nemət ilə dost imiş, hər dərdini onunla bölüşürmüş. Nemətə yazıb ki, müharibəyə gedirəm, haqqını halal elə, atanamı sənə tapşırıram. Nemətdən şəhid qardaşı ilə münasibətindən danışmasını istədik, məlumatı göndərəcəyini dedi. Həmin yazını kiçik redaktə ilə burada veririk:

Quluzadə Kamran Pərviz oğlu 1998-ci il avqustun 14-də Ağsu rayonunun Gəgəli kəndində dünyaya gəlmişdir. 2004-2013-cü illərdə Sahib Mütəllimov adına Gəgəli kənd tam orta məktəbində təhsil almış, 2013-2015-ci illərdə təhsilini Bakı şəhəri Xətayi rayonu Əhmədli qəsəbəsindəki 164 saylı orta məktəbdə davam etdirmişdir. Eyni zamanda Zəka tədris mərkəzində abituriyent hazırlığı kurslarına getmişdir. 2015-ci ildə orta məktəbi bitirib Heydər Əliyev adına Ali Hərbi Məktəbinə XTQ təyinatlı təşnikalar ixtisası üzrə qəbul olunmuşdur. 2019-cu ildə hərtbi məktəbi leytenant tütbəsi ilə bitirmiş, Naxçıvan Muxtar Respublikasında XTQ-da leytenant kimi taqım komandiri vəzifəsində xidmətə başlamışdır. Əvvəlcə Kəngərli rayonunun Qıvraq qəsəbəsində, daha sonra Naxşıvan şəhərində xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda qrup yoldaşlarının şəhidlik xəbərini alıb, Anar Əliyevin rəhbərliyi altında könüllü döyüşlərə qatılmışdır. Füzuli, Hadrut, Xocavənd və Şuşa istiqamətində gedən döyüş əməliyyatlarında şücaətlə iştirak etmiş, Xocavəndin Tuğ kəndində şəhid olmuşdur.

Verilən məlumata görə, XTQ Tuğ kəndinə 54 nəfərlə daxil olmuş, kəndin alınmasında 600-dən çox düşməni məhv etmiş, 54 nəfərdən 32 nəfər şəhidlik zirvəsinə ucalmışdır. Döyüş yoldaşlarının dediyinə görə, Kamran böyük qəhrəmanlıq göstərmiş, düşmənin xeyli sayda canlı qüvvəsini və döyüş texnikasını məhv etmişdir. Minamyot mərmisi ilə ayağından yaralanmağına baxmayaraq, döyüşü davam etdirmişdir. Düşmənlə üzbəüz döyüşdə ikinci ayağından da mərmi yarası almışdır. 15 saat yaralı halda döyüşən Baş leytenant Kamran Quluzadə XTQ komandiri Anar Əliyevlə birlikdə oktyabrın 21-də şəhid olmuşdur...

Kamran Quluzadə Ağsu rayon rəhbərlərinin və Gəgəli kənd camaatının iştirakı ilə oktyabrın 24-də Gəgəli kənd Zeyvə nənə qəbristanlığında dəfn olunmuşdur. Gəgəli kəndində Şəhid Kamran Quluzadənin xatirəsinə müxtəlif abidələr uçaldırmışdır.

Şəhadətindən sonra "Vətən Uğrunda", "Füzulinin alınması uğrunda", "Xocavəndin alınması uğrunda""Şuşanın azad edilməsi uğrunda" medalları ilə təltif olunmuşdur. Digər medalların veriləcəyi xəbəri də vardır.

Maştağa kəndində şəhidlərə böyük hörmət və ehtiram vardır. Maştağa camaatı əslən maştağalı olan şəhidlərimizlə yanaşı Maştağa kəndi ilə bu və ya digər bir şəkildə əlaqəsi olan şəhidlərimizin də xatirəsini əbədiləşdirmək üçün əlindən gələni edir. Maştağa qəsəbəsində Şəhid Kamran Quluzadənin xatirəsini əbədiləşdirmək üçün də bulaq açılmışdır. Maştağa Şəhidlər Xiyabanında, Maştağa Cümə Məscidinin qarşısında, habelə Maştağa şəhidlərinin şəkilləri olan xatirə lövhələrində də Kamran Quluzadənin şəkli vardır...

Allah rəhmət eləsin. Ruhu şad olsun. Allah ailəsinə səbr versin...



***SONA XƏYAL***